Sağlamlıq imkanları məhdud uşaqlarla çalışan təhsil işçilərinin xüsusi təhsil sahəsində səriştələrinin artırılması məqsədilə vebinarlar keçiriləcək. Vebinarlar Təhsil Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xüsusi təhsil kafedrasının pedaqoji heyəti tərəfindən təşkil ediləcək.

Vebinar iştirakçıları sağlamlıq imkanları məhdud uşaqların inkişafının qiymətləndirilməsi haqqında elmi və praktiki məlumatlar alacaqlar. Vebinarlar çərçivəsində xüsusi təhsil ehtiyaclarından asılı olaraq təhsilalanlara ayrı-ayrı fənlərin tədrisi məsələlərinə toxunulacaq. Həmçinin sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması, onlarla korreksiya-inkişafetdirici iş prosesində kompleks yanaşmanın təşkili qaydaları və tərkib hissəsi kimi valideynlərlə birgə işin təşkili məsələlərindən danışılacaq.

Vebinarlar “Microsoft Teams” platforması üzərindən keçiriləcək. Vebinarların keçiriləcəyi tarixlər, mövzular və iştirak üçün keçid linkləri aşağıda təqdim olunur:

- 08.10.2021-ci il saat 15:00-dan-17:00-dək. **Mövzu:** “Yüngül və orta dərəcəli əqli geriliyi olan şagirdlərin təhsilinin təşkili” Vebinara keçid: https://bit.ly/3kPFqBN
- 22.10.2021-ci il saat 15:00-dan -17:00-dək. **Mövzu:** “Sağlamlıq imkanları məhdud şagirdlər üçün inklüziv təhsilin təşkili” Vebinara keçid: https://bit.ly/3BEIGXz
- 12.11.2021-ci il saat 15:00-dan -17:00-dək. **Mövzu:** “Dayaq-hərəkət aparatı pozulması olan şagirdlərin təhsilinin təşkili” Vebinara keçid: https://bit.ly/3BCyjU1
- 26.11.2021-ci il saat 15:00-dan -17:00-dək. **Mövzu:** “Somatik pozulmaları olan şagirdlərüçün təhsil prosesinin təşkili” Vebinara keçid: https://bit.ly/3kSuzas

Qeyd edək ki, vebinarlarda iştirak üçün göstərilən tarixlərədək müvafiq keçidlər vasitəsilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçməyənlər vebinarlarda iştirak edə bilməyəcəklər.